**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

# “Azərbaycan Respublikasının tədiyə balansının təhlili və qiymətləndirilməsi” mövzusunda

**MAGİSTR DİSSERTASİYASI**

**Səfərova Şəlalə Əbdülhəsən qızı**

**BAKI – 2019-cu il**

**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

**BEYNƏLXALQ MAGİSTRATURA VƏ DOKTORANTURA MƏRKƏZİ**

**BMDM-in direktoru**

**i.ü.f.d. dos. Əhmədov Fariz Saleh**

**“___” ____________ 2019-cu il**

**“Azərbaycan Respublikasının tədiyə balansının təhlili və qiymətləndirilməsi” mövzusunda**

# MAGİSTR DİSSERTASİYASI

**İxtisasın şifri və adı: 060403, Maliyyə**

**İxtisaslaşma: Maliyyə menecmenti**

**Qrup: 642**

**Magistrant**
**Səfərova Şəlalə Əbdülhəsən**

**___________________imza**

**Elmi rəhbər**
**Abdullayev Şirzad Əyyub**

**___________________imza**

**Proqram rəhbəri**
**i.e.n. dos. Seyfullayev İlqar Zülfüqar**

**_____________________imza**

**Kafedra müdiri**
**i.e.d., prof. Kəlbiyev Yaşar Atakişi**

**_____________________imza**

**BAKI – 2019**

## Elm andı

Mən, Səfərova Şəlalə Əbdülhəsən qızı and içirəm ki, Azərbaycan Respublikasının tədiyə balansının təhlili və qiymətləndirilməsi mövzusunda magistr dissertasiyasını elmi əxlaq normalarına və istinad qaydalarına tam riayət etməklə və istifadə etdiyim bütün mənbələri ədəbiyyat siyahısında əks etdirməklə yazmışam.

## Azərbaycan Respublikasının tədiyə balansının təhlili və qiymətləndirilməsi


### Xülasə

**Mövzunun aktuallığı: Qloballaşma dövründə dövlətlər arasında iqtisadi münasibətlərin genişlənməsi beynəlxalq mühitdə rəqabət əsasında əmək bölgüsü vasitəsilə həyata keçirilir. Beynə1xalq rəqabət zamanı ixracata üstünlük verən ölkələr tərəfindən gözlənilən təsirlərdən qorunmaq və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli şəkildə faydalanmaq məqsədilə xarici iqtisadi fəaliyyətin dərin və hərtərəfli təhlilinin aparılması vacibdir.**

**Tədqiqatın məqsədi. Tədiyə balansının strukturu, proqnozlaşdırılma üsullarının müəyyən edilməsi, ölkəmizdə tədiyə balansının tənzimlənməsi, təsir edən mənfı amillərin təhlili, mövcud problemlərin aşkar edilməsi və modern metodlardan istifadə edərək tərtibi metodikanın təkmilləşdirilməsi yollarını tətbiq etmək tədqiqat işinin əsas məqsədlərindəndir.**

**İstifadə olunmuş tədqiqat metodları: Tədqiqat zamanı sistemli yanaşma, müqayisəli təhlil və sintez metodlarından istifadə olunması nəzərdə tutulur.**

**Tədqiqatın informasiya bazası: Mövzu i1ə əlaqədar yer1i və xarici tədqiqatçı1arın araşdırmaları, Azərbaycan və xarici ölkə alimlərinin elmi əsərləri, dövlət orqanlarının materialları, beynəlxalq təşkilatların hazırladıqları hesabatlar, tədqiqat mövzusu üzrə elmi araşdırmalar, elmi ədəbiyyatlar və digər hüquqi normativ sənədlər tədqiqatın nəzəri-metodoloji əsaslarını təşkil edir.**

**Tədqiqatın məhdudiyyətləri: Tədiyə balansının müsbət sa1doya çatması üçün aparılan beynə1xalq ma1iyyə siyasətinin tərkib hissəsi va1yuta siyasətindən ibarətdir. Valyuta məhdudiyyətlərindən onun əsas elementi kimi istifadə edilir. Bu səbəbdən, tədqiqat beynəlxalq təcrübə əsasında daha geniş araşdırma tələb edir.**

**Tədqiqatın gözlənilən elmi və praktiki nəticələri: Dissertasiya işində tədiyə balansının strukturunun təkmilləşdirilməsinə dair verilən təklif və tövsiyələrin həyata keçirilməsi tədiyə balansının tənzimlənməsi problemlərinin həll edilməsinə, müasir pul-maliyyə və məzənnə siyasətinin sabitliyinə kömək edə bilər.**

**Nəticələrin istafadə oluna biləcəyi sahələr: Tədiyə balansının strukturunun təkmilləşdirilməsinə dair tədqiqat işində verilən təklif və tövsiyələrin həyata keçirilməsi, tədiyə balansının tənzimlənməsi problemlərinin həll edilməsində, müasir pul-maliyyə və məzənnə siyasətinin sabitliyində böyük rol oynaya bilər.**



**Açar sözlər: tədiyə balansı, rəqabətqabiliyyətlilik, məzənnə siyasəti**

**Analysis and assessment of the balance of payments of the Republic of Azerbaijan**

**Summary**

**Relevance of the research: The balance of payments contact generalized fıgures reflecting the countries' relations with the outside world. Balance of payments regulation is one of the most important tasks facing the economies of countries. The balance of payments should be balanced and the defıcits should be eliminated. All aspects of the balance of payments should be examined, problems should be investigated and solutions should be offered. Balance of payment is one of the most important indicators of the country's economy. Foreign investors are also fırst examining the country's balance of payments for information on the country's economy.**

**Research methods used: In dissertational research, analytical, scientifıc-abstraction, induction and deduction, statistical analysis, grouping and synthesis methods were used. Collecting, grouping, analyzing, generating and summarizing materials using various research methods.**

**İnformation base of research: The information base of the dissertation work is compiled by Statistical Committee and the Central Bank of the Republic of Azerbaijan. During the research, there were some diffıculties as the balance sheet report was presented in less detail than in other countries.**

**The result of research: The economic reforms carried out by the state and their results have been investigated and new proposals have been made for the following years. Prospects for the development of the non-oil sector have been studied and potential areas for different areas have been identifıed. As a result, proposals that can be implemented by our state in the present and following years have been prepared and put forward at the end of the research work.**

**Scientifıc-practical signifıcance of the results: The main focus of my research is the changes in the balance of payments of Azerbaijan, the decline and the elimination of these losses. The study analyzed years and made suggestions for the elimination of the problems.**

**Keywords: economic reforms, balance of payment, foreign investment.**

# İxtisarlar və İşarələr

| | |
|---|---|
| **ABƏŞ** | Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti |
| **ABŞ** | Amerika Birləşmiş Ştatları |
| **AİB** | Avrasiya İqtisadi Birliyi |
| **ARMB** | Azərbaycan Respublikası Mərkəzi Bankı |
| **ASNM** | Avropa Statistikasının Normalar Məcəlləsi |
| **BİYB** | Beynəlxa1q İnkişaf və Yenidənqurma Bankı |
| **BVF** | Beynəlxa1q Valyuta Fondu |
| **CƏB** | Cari əməliyyat balansı |
| **DGK** | Dövlət Gömrük Komitəsi |
| **DSK** | Dövlət Statistika Komitəsi |
| **ƏDV** | Əlavə dəyər vergisi |
| **ETT** | Elmi-texniki tərəqqi |
| **FOB** | Sərbəst gəmi bortunda (Free on board) |
| **İƏİT** | İqtisadi Əməkdaş1ıq və İnkişaf Təşki1atı |
| **İEOÖ** | İnkişaf etməkdə olan ölkə |
| **İEOÖ** | İnkişaf etməkdə olan ölkələr |
| **İZÇA** | İnvestisiya Zəmanəti üzrə Çoxtərəf1i Agent1ik |
| **KOS** | Kiçik və Orta Sahibkar1ıq |
| **MDB** | Müstəqi1 Dövlətlər Birliyi |
| **MHS** | Milli hesablar sistemi |
| **SİF (CIF)** | Dəyər, Sığorta, İcarə (Cost, Insurance, Freight) |
| **TMK** | Transmilli korporasiya |
| **ÜDM** | Ümumi Daxili Məhsul |
| **ÜMG** | Ümumi Milli Gəlir |
| **ÜTT** | Ümumdünya Ticarət Təşkilatı |
| **XİH** | Xüsusi iqtibas hüquqları |

**MÜNDƏRİCAT**


| | | |
|---|---|---|
| | **GİRİŞ** ··································· | **3** |
| **I fəsil.** | **TƏDİYƏ BALANSININ ÖYRƏNİLMƏSİNİN ELMİ-NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI** ··································· | **6** |
| 1.1. | Tədiyə balansının mahiyyəti, strukturu və proqnozlaşdırılması üsulları ········ | 6 |
| 1.2. | Tədiyə balansının tərtibinin metodoloji əsasları ··································· | 13 |
| **II fəsil.** | **AZƏRBAYCAN RESPUBLİKASININ TƏDİYƏ BALANSININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ** | **20** |
| 2.1. | Azərbaycan Respublikasının 2019-cu il üçün tədiyə balansının analizi ········· | 20 |
| 2.2. | Azərbaycan Respublikasında tədiyə balansının beynəlxalq maliyyə sistemi ilə münasibətləri ··································· | 33 |
| **III fəsil.** | **TƏDİYƏ BALANSININ TƏKMİLLƏŞDİRİLMƏSİ PRİORİTETLƏRİ** | **47** |
| 3.1. | Tədiyə balansı hesabatının və proqnozlarının tərtib edilməsi mexanizminin təkmilləşdirilməsi ··································· | 47 |
| 3.2. | Tədiyə balansının formalaşmasına təsir edən amillər ··································· | 56 |
| | **NƏTİCƏ VƏ TƏKLİFLƏR** ··································· | **63** |
| | **İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT** ··································· | **71** |
| | Cədvəllərin siyahısı ··································· | 73 |
| | Qrafiklərin siyahısı ··································· | 73 |

# GİRİŞ

**Mövzunun aktuallığı.** Qloballaşma şəraitində ölkələr arasında xarici iqtisadi əlaqələrin genişlənməsi bir qayda olaraq rəqabət əsasında əmək bölgüsü vasitəsilə beynəlxalq bazarda həyata keçirilir. Ölkəmiz qarşılıqlı maraqlar əsasında dünya iqitsadiyyatına inteqrasiya olunur. Əsaslandırılmış proqnozların hazırlanması üçün xarici iqtisadi əlaqələrin təhlili və açıq iqitsadiyyat modelinə üstünlük verilməsi şərait yaradır. Beynəlxalq rəqabət şəraitində ixracat üstünlüyünə malik ölkələr tərəfindən gözlənilən təsirlərdən qorunmaq və beynəlxalq əmək bölgüsünün üstünlüklərindən səmərəli şəkildə faydalanmaq məqsədilə xarici iqtisadi fəaliyyətin dərin və hərtərəfli təhlilinin aparılmasının nəzəri və praktiki aspektlərinin öyrənilməsi vacibdir. Ölkənin apardığı ticarət əməliyyatlarını, investisiya qoyuluşlarını, ölkəyə daxi1 olan və çıxan va1yutanın həcmini, həmçinin pu1 köçürmələrini, xaricdən ə1də edilən dividend ödənişlərini, humantar yardım1arı və s. tədiyə balansı vasitəsi i1ə müəyyən edilir. Başqa sözlə ifadə etsək, bu balans ölkənin xaric1ə apardığı bütün əməliyyatların pu1 formasında əks etdirildiyi hesabat formasıdır.

Ölkənin beynəlxa1q iqtisadi əlaqələrinin mədaxi1 və məxaric kimi valyuta formasında ifadə olunan tədiyə balansı bu baxımdan həlledici rol oynadığı üçün bu balansın tənzimlənməsi sisteminin təkmilləşdirilməsi istiqamətində aparılan işlər olduqca əhəmiyyətlidir. Bu səbəbdən tədqiqat işinin mövzusunun dövrümüz üçün ən aktual iqtisadi məsələlərdən biri olduğunu hesab edirəm.

**Problemin qoyuluşu və öyrənilmə səviyyəsi.** Tədiyə balansında yaranan qeyrı-taraz vəziyyət yaradaraq ölkə daxilində faiz dərəcələrinin artımı i1ə müşahidə edilir. Daxi1i valyuta bazarında taraz1ığın pozulması inflyasiya i1ə manatın məzənnəsinin optimal nisbətinin müəyyən edilməsi, real əhali gəlir1ərinin xarici ticarət ə1aqələrinə təsirinin qiymətləndirilməsi, devalvasiya siyasətinin, dövlətin qəbul etdiyi proqramların tədiyə balansının tənzimlənməsində rolunun və mövcud problemlərinin həll edilməsinin müasir üsullarının öyrənilməsinin vacibliyini qaçılmaz edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqat işinin əsas məqsədi ölkədə müəyyən dövr ərzində baş verən iqitsadi əməliyyatların nəticəsini ümumiləşdirərək, əldə edilmiş nəticəyə əsasən növbəti dövrə uyğun strateji qərarlar verərək bu balansın vacibliyini önə çıxarmaqdır.

Əsas vəzifəsi isə aşağıdakılardan ibarətdir:

- tədiyə balansının strukturu, proqnozlaşdırılma üsullarının müəyyən edilməsi;
- ölkəmizdə tədiyə balansının tənzimlənməsi, təsir edən mənfı amillərin təhlili;
- mövcud problemlərin aşkar edilməsi;
- modern metodlardan istifadə edərək tərtibi metodikanın təkmilləşdirilməsi yollarının tətbiq edilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın predmetıni rezident və qeyrı-rezidentlər arasında aparı1an xarici iqtisadi əməlyyatlar, bu sahədə olan analitik təhlillər, obyektini isə Azərbaycan Respublikasının tədiyə balansı, onun strukturu, mexanizminin formalaşdırılması təşkil edir.

**Tədqiqat metodları.** Tədqiqat zamanı sistemli yanaşma, müqayisəli təhlil və sintez metodlarından istifadə olunması nəzərdə tutulur.

Sistemli yanaşma metodu ökənin maliyyə sistemini bütövlükdə xarakterizə etmək və onun inkişaf prosesini tədqiq etmək üçün tətbiq olunacaqdır.

Müqayisəli təhlil zamanı dünya ölkələrinin hesabatları i1ə ölkəmizin mövcud sistemi üzrə göstəricilərinin müqayisəsi aparılacaqdır.

Sintez təhlildə isə digər ölkələrdə tətbiq edilən və formalaşmış uğurlu yanaşmaların ümumiləşdirilməsi və Azərbaycanın tədiyə balansı sisteminə tətbiqi imkanlarının araşdırılması üçün tətbiq ediləcəkdir.

**Tədqiqatın informasiya bazası.** Mövzu i1ə əlaqədar yer1i və xarici tədqiqatçı1arın və ekspertlərin araşdırmaları, Azərbaycan və xarici ölkə alimlərinin elmi işləri, Azərbaycan Respublikası Mərkəzi Banknın (ARMB), İqtisadiyyat Nazir1iyinin, Dövlət Statistika Komtəsinin (DSK), Dövlət Gömrük Komitəsinin (DGK) hesabat və materiallan, beynəlxalq təşki1atların hazır1adıqları hesabatlar,

icmal və məruzələri, tədqiqat mövzusu üzrə elmi araşdırmalar, elmi ədəbiyyatlar və digər hüquqi normativ sənədlər dissertasiyanın informasiya bazasını təşkil edir.

**Tədqiqatın məhdudiyyətləri.** Ölkənin davamlı iqtsadi artımnın və əhalinin sosia1 rifahının yüksəldilməsinin əsas şərtləri dayanıqlı makroiqtsadi sabitlik və aşağı inflasiyadır. Valyuta məhdudiyətlərindən onun əsas elementi kimi istifadə edilir. Bu səbəbdən, tədqiqat beynəlxalq təcrübə əsasında daha geniş araşdırma tələb edir.

**Tədqiqatın elmi yeniliyi.** Ölkəmizdə qəbul edilən dövlət əhəmiyyətli strateji proqramların tədiyə balansının tənzimlənməsində rolu dəqiqləşdirilərək, bu balansın tənzimlənməsi problemərinin müsbət yöndə və qısa müddətdə həll edilməsinin müasir üsulları araşdırılmışdır.

**Nəticələrin praktiki əhəmiyyəti və tətbiq sahələri.** Dissertasiya işində tədiyə balansının strukturunun təkmilləşdirilməsinə dair verilən təklif və tövsiyələrin həyata keçirilməsi tədiyə balansının tənzimlənməsi problemlərinin həll edilməsinə, müasir pul-maliyyə və məzənnə siyasətinin sabitliyinə kömək edə bilər.

# I FƏSİL. TƏDİYƏ BALANSININ ÖYRƏNİLMƏSİNİN ELMİ-NƏZƏRİ VƏ METODOLOJİ ƏSASLARI

## 1.1 Tədiyə balansının mahiyyəti, strukturu və proqnozlaşdırılması üsulları

Tədiyə balansı inkişaf edən iqtisadiyyatın ən çaşdırıcı mövzularından biri və birincisidir. Əksəriyyət tədiyə balansının ancaq idxal (import) i1ə ixrac (export) arasında olan fərq kimi olduğunu fıkirləşir. Bu isə xarici olan ticarətin saldosudur. Doğrudur, tədiyə balansı və saldo eyni olan mənanı kəsb etməsə də, bu balasnın hazırlanmasında saldodan da istifadə olunur

Hələ orta əsrlərdə tədiyə balansı ticarətin balansı formasında meydana gəlmişdir və ilk dəfə bu termini ingilis iqtisadçısı Con Stüvart-Mi1l tərəfından elmə daxil edilmişdir. Həmin dövrdə balans əvvəlcə fıskal olan rolu həyata keçirirdi. Öz müasir olan formasında tədiyə balansı əsas makro iqtisadi siyasətin elementlərinin hazırlanması zamanında istifadə edilir. Tədiyə balansı hər hansı ölkənin beynəlxalq olan iqtisadi əməliyyatlarının həyata keçirilməsi nəticəsində mədaxil və məxaric formasında əks etdirən statistik hesabat sistemi olmaqla, milli iqtisadiyyata daxil olan, eyni zamanda xaricə çıxarılmış olan valyuta vəsaitlərinin arasında nisbəti müəyyənləşdirir.

Ümumiləşdirərək belə demək olar ki, tədiyə balansı:

- Ölkənin beynəlxalq olan iqtisadi əlaqələrinin mədaxil i1ə məxaric formasında valyutayla ifadə olunan dəyəridir.
- Ölkənin rezident i1ə qeyrı-rezidentlərinin dünya arasında olan iqtisadi münasibətlərin maliyyəsinin yekunlarını əks etdirən iki qat qeyd etmə prinsipi əsasında formalaşdırılan matris şəklində cədvəlidir.

Tədiyə balansı müəyyən edilmiş bir dövr (aylıq, rüblük və ya illik) üçün hazırlanır. Müəyyən dövr üzrə tərtib olunmuş tədiyə balansı özündə ödəmə və daxi1 olmaların nisbətlərinin dəyişməsini əks etdirir.

Tədiyə balansının tərtibi zamanı əsas götürülmüş prinsip olan ikili yazılış sistemi tədiyə balansında əks etdirilən istənilən əməliyyatın xarakterindən, növündən asılı olmadan bərabər miqdarda ikı dəfə qeyd edilməsinə əsaslanır. Belə

yazılışlardan 1-i müsbət olan işarəli kredit, digəri də mənfı olan işarəli debetdir. Bu da ölkənin cari əməliyyatlarından əldə olunan gəlirləri, bu əməliyyatlara çəkilən xərclərindən daha böyükdürsə bu vəziyyət profısit (cari əməliyyatlarda olan artıqlığı), daha kiçikdirsə kəsir (cari əməliyyatlarda olan defısit) kimi adlandırılır. (Tədiyə balansının profısiti = rəsmi valyuta ehtiyatlarının artımı = cari hesab profısiti + ölkəyə xalis kapital axını) (Nəzərov V.Ə., 2016)

Ölkənin rəsmi aktivlərinin artması tədiyə balansında debet tərəfındə qeyd olunur. Rəsmi olan aktivlərin artımı onun strukturuyla birbaşa bağlı olsa da (o struktur onu təşkil eləyən vasitələrin seçim və xüsusi çəkiləri ilə birbaşa müəyyənləşir), dövlətin saxlanclarında aktivlərin artımı, məhsulun idxalına oxşayır.

Mal ilə xidmətlərin ixracı, əldə olunan gəlir ilə transfertlər, aktivlərində azalma və öhdəliklərində artma kredit yazılışının vasitəsilə balansda əks edilir. Mal və xidmətin idxalı, ödənilmiş gəlirləri və köçürülmüş transfert, aktivlərində artım və öhdəliklərində azalma debet yazılışının vasitəsilə balansa daxil olunur.

Tədiyə balansının bir hissəsi də dövlətin rəsmi qızıl-valyutası olan ehtiyat aktivləridir. Qızıl-valyuta ehtiyatlarının həcmi tədiyə balansının cari vəziyyətindən birbaşa asılıdır. (Məmmədov Z., 2012)

Bunu da vurğulamaq vacibdir ki, ticarət profısiti və ticarət defısiti tədiyə balansının 3 komponenlərindən (cari - maliyyə - kapital hesabı) yalnız bırini, yəni cari hesabı qeydə alır. Yəni, cari olan hesabın göstəricisi ticarət balansı anlamına gəlir.

Qaydalara uyğun şəkildə kreditə görə aşağıdakı göstərilən əməliyyatlar həyata keçirilir:

1) real olan resursların maddələrinə görə ixrac;
2) maliyyə resurslarının maddələri üzrə, ölkənin xarici öhdəliklərinin artmasına, yaxud ölkənin rezidentlərinə məxsus olan xarici aktivlərinin azalmasına gətirən əməliyyatlar.

Debetlərə görə isə tərsinə:

1) real olan resursların maddələrinə görə idxal;

2) maliyyə resurslarının maddələrinə görə ölkənin xarici öhdəliklərinin azalmasına, yaxud ölkə rezidentlərinə məxsus xarici aktivlərin artmasına şərait yaradan əməliyyatlar qeyd edilir.

Digər sözlə, aktivləri üçün müsbət olan rəqəm (krediti) onun ehtiyatlarının azalmasını, mənfi rəqəm isə (debeti) artmasını göstərir.

Tədiyə balansının standart strukturu aşağıdakı kimidir:

**Cədvəl 1. Tədiyə balansının standart strukturu**

| **A. Cari əməliyyatlar hesabı** | **B. Kapital və maliyyənin hərəkət hesabı** | **C. Digər qısamüddətli kapital** | **D. Səhvlər və ötürmələr** |
|---|---|---|---|
| Əmtəələr<br>Xidmətlər<br>İnvetsisiya gəlirləri<br>Digər xidmətlər və gəlirlər<br>Fərdi köçürmələr (birtərəfli) | Birbaşa investisiyalar<br>Portfel investisiyaları<br>Digər uzunmüddətli kapital | | |
| **Nəticə:** | **A + B + C + D – kapitalın hərəkəti balansı** | | |
| **E. Kompensasiyaedici maddələr** | **F. Fövqəladə maliyyəşdirmə mənbələri** | **G. Xarici dövlət orqanlarının qızıl-valyuta ehtiyatlarının tərkibində öhdəliklər** | |
| **Yekun:** | **A + B + C + D +E + F + G** | | |
| **H. Ehtiyatlarda yekun dəyişiklik** | | | |
| Qızıl | | | |
| Xüsusi İqtibas Hüquqları (XİH) | | | |
| BVF-də ehtiyat mövqeyi | | | |
| **Nəticə:** | **A + B + C + D + E + F + G + H** | | |

**Mənbə:** Həsənov R.T., Həsənli Y.H., 2013

Yuxarıda qeyd edilən bərabərliklərə əsaslanaraq deməliyik ki, kapitalın hərəkəti hesabı və cari tədiyə balansının hesabı tarazlaşdırılandır. Yəni, cari hesabın saldosunun və kapitalın hərəkəti hesabının saldosunun məbləği sıfıra bərabərdir. (Həsənov R.T., Həsənli Y.H., 2013)

Struktura əsasən tədiyə balansı dörd bölmədən ibarətdir:

1. Cari olan əməliyyatların hesabı (A bloku üzrə)

2. Kapital ilə maliyyənin hərəkətinin hesabı (B+C+D blokları üzrə)

3. Balanslaşdırıcı olan maddələr (E+F+G bloklar üzrə)

4. Ehtiyat olan aktivlərinin dəyişməsi (H bloku üzrə)

Tədiyə balansının cari əməliyyat balansı (CƏB) hissəsi ən praktik və analitik əhəmiyyət kəsb edən hissəsidir. CƏB müəyyən zaman kəsimində ölkənin xarici tərəfdaşlarla qarşılıqlı əlaqələrinin nəticəsini göstərməklə yanaşı, daxili investisiya və yığımlar balansını da əks etdirir. CƏB dörd qrupa bölünməklə ticarət balansı, xidmətlər balansı, gəlirlərin hərəkəti və cari transfertlər üzrə əməliyyatları özündə birləşdirir. Nəticə olaraq tədiyə balansının formalaşan saldosu lazımlı səviyyədə formalaşır. Bu da ölkənin qızıl-valyuta ehtiyatlarının dəyişməsi hesabına maliyyələşdirilərək ya ödənilər (əgər ki, saldo üzrə mənfidirsə), ya da ki, bölünür (əgər ki, müsbətdirsə). (Haxverdiyev Ə., Həsənov V., 2016)

İndi isə hissə-hissə tədiyə balansını təhlilini aparaq:

Ölkənin tədiyə balansının təhlilini apardığımız zaman ilk olaraq cari hesablar üzrə balans olan A bloku üzrə nəzərdən keçirilir. O blok əmtəə və ya xidmətlər i1ə xarici olan ticarəti, həmçinin daha da əvvəl gətirilmiş olan ya da çıxarılmış kapitalı üzrə əldə olunan gəlirlərinin köçürülməsini, fərdlərin pul köçürmələri və ya əvəzsiz olaraq yardım kimi olan iri həcmli olan əməliyyatları və s.-ni özündə ehtiva edir.

Cari olan tədiyə balansı, mal və ya xidmətlərinin ixrac ya da idxalını, xarici investisiyalardan gələn gəlirləri, cari transfertləri əks etdirir və balans tərtib edilən dövrdə aparılmış əməliyyatlar əks olunduğu üçün həmin əməliyyatlar sonrakı dövrlərdə tədiyə balansında öz əksini tapmır. Cari tədiyə balansının əsası Əmtəələr: idxal FOB və Əmtəələr: ixrac FOB maddələrindən ibarətdir. Onların arasındakı başlıca fərq ticarət balansını təşkil etməsidir. qeyd edilməsi vacibdir ki, tədiyə balansında ixrac i1ə idxal FOB şərtilə (yəni, əmtəənin qiymətinə sığorta i1ə daşımanın xərcləri daxil olunmadan) qiymətləndirilir. Xarici olan ticarətin statistikasında idxal ənənəvi şəkildə SİF şərtilə qiymətləndirilir.

Başqa əmtəə, xidmət və gəlirlər maddəsinə aiddir:

a) digər xidmətlər: yük, sərnişin i1ə digər daşınmalar; beynəlxa1q turizm; te1ekommunikasiya xidmət1əri; ma1iyyə, təhsi1 və s. xidmətlər;

b) Ölkənin xaricdə olan özə1 və dövlət investisiya qoyuluşlarından ə1də etdiyi gə1irlər, həmçinin ölkəyə qoyulan xarici investisiyalarda ə1də edilən ana1oji gəlirlər;

c) döv1ətin xaricdə siyasi və inzibati funksiya1arı i1ə əlaqədar o1an əməliyyatlar (hərbi baza1ar, beynəlxa1q təşkilatlarda iştirak və s.).

d) xidmət idxa1-ixracından fərqləndiri1məsi çətin olan əmtəə idxa1-ixracı;

e) mü1kiyyət hüququndan istifadəyə görə gəlir1ər və xərc1ər.

Özəl bırtərəfli köçürmələr və Dövlətin bırtərəfli köçürmələri maddələrinin transfertlər adlanmış əməliyyatları əhatə edir:

a) əvəzsiz dövlət yardımları (hədiyələr);

b) pu1 köçürmələri.

Kapitalın hərəkəti balasnı (B və C blokları üzrə) aşağıdakılardan ibarətdir:

| |
|---|
| **1. Birbaşa investisiyalar əv digər uzunmüddətli kapital (B bloku üzrə)**<br>a. birbaşa və portfel investisiyaları<br>b. Digər uzunmüddətli kapital<br>c. Uzunmüddətli dövlət və özəl bank borcları<br>d. əvvəl alınmış (təqdim edilmiş) borların əsas hissəsinin ödənilməsi<br>e. beynəlxalq bank və maliyyə təşkilatlarının istiqrazlarına abunə |
| **2. Qısamüddətli capital (C bloku üzrə)**<br>a. bir il müddətinə qəər olan qısa dövr üçün həyata keçirilmiş investisiyalar<br>b. qısamüddətli üiymətli kağızların və öhdəliklərin, bank depozitlərinin və banklararası borclanmanın qısamüddətli hərəkəti |
| **3. Səhvlər və ötürmələr (D bloku üzrə)**<br>a. nəzərə alınmamış göstəricilər<br>b. qısamüddətli kapitalın hərəkəti üzrə aparılan hesablamalar<br>c. qaçaqmalçılıq fəaliyyəti və kapitalın qeyri-leqal axını |
| **4. Kompensasiyaedici maddələr (E bloku üzrə)**<br>a. Qızılın monetləşdirilməsi/demonetləşdirilməsi və qızılın dünya qiymətlərində baş verən dəyişikliklər hesabına ölkənin qızıl ehtiyatının həcmində baş verən tərəddüdlər<br>b. mübadilə məzənnələrinin dəyişməsi nəticəsində ölkənin hesabında olan (XİH) və ölkənin BVF-də olan ehtiyat mövqeyində baş verən dəyişikliklər<br>c. mübadilə məzənnələrinin dəyişməsi nəticəsində ölkənin valyuta ehtiyatlarında, nun xarici tələblərində və BVF-dən aldığı kreditlərdə baş verən dəyişikliklər. |

Tədiyə balansının kredit bö1məsi – məhsu1 və xidmətlərin idxalı və ixracında müqavilələrin kredit və ya debet hissəsinə aid edilməsində hər hansısa problem olmasa da, bəzi hallarda müəyyən çətinliklər yaradır.

Belə ki, xaricdən alınan borclar ixracla xarakterinə görə oxşardır, çünki bu halda da ölkə özünün borc öhdəliyini xarici kreditora satır. Başqa sözlə, borc öhdəliyi də ixrac kimi pul bank depozitləri formasında müvafiq qaydada xərclənməli olan pul əldə etmək vasitəsidir. Oxşar hal debet hesabında da baş verir. Məhsul və xidmətlərin idxalı, ö1kəyə dəyərlərin gə1məsini əks etdirir və bu halda onların əvəzinin nağd pulla ödənilməsi baş verir. Lakin, xaricilərin kreditləşdirilməsində ölkə faktiki olaraq gələcəkdə ödəmək haqqında zəmanətli vəd hesab olunan beynəlxalq statuslu öhdəliklər alır. (Rəsullu R.F., 2018)

## 1.2 Tədiyə balansının tərtibinin metodoloji əsasları

Azərbaycan Respublikasında tədiyə balansının işlənməsi qısa zaman ərzində tədiyə balansının cari metodo1oji məsə1ələri və tərtibi prosesi zamanı informasiyanın təminatı üzrə problemləri hə11 olunaraq lazımi səviyyədə təmin olunmuşdur. (Şəkərəliyev A., 2011)

Qeyd etdiyimiz kimi, tədiyə balansı müəyyən olan bır dövrdə ölkə rezidentlərinin rezident olmayanlar ilə apardığı iqtisadi olan əməliyyatların (misal üçün: əmtəə/xidmət/texnologiya/kapital ixracı və ya idxalı) məcmusunu özündə əks elətdirən göstəricidir. Hər bır şəxs ya da müəssisənin rezidentlik üzrə statusu onun hər hansı bır ölkənin iqitsadi ərazisini özünün faəliyyət mərkəzi kimi seçməsi həmin əraziyə olan bağlılığı i1ə müəyyən olunur.

Tədiyə balansı cari əməliyyatlar və kapita1 hesabına əsaslanaraq ikili yazılış formasınada tərtib edilir. Belə ki, hər bir mübadilənin mədaxil və məxaric tərəfləri kredit və debet bölməsində əks olunur. Ölkədə iqitsadi sabitliyin durumu, ölkənin ödəniş qabiliyyəti, iqitsadi cəhətdən etibarı məhz bu balansda əks olunur. (https://aydinoghlu.wordpress.com/2018/05/10/tədiyə-balansi-nədir-ətrafli., 2018)

BVF-nin açıqladığı hesabatlara əsasən, müəyyən dövr üzrə statistik bir hesabat olan tədiyə balansı aşağıdakıları özündə əks elətdirir:

a) xarici ölkələr i1ə hər hansısa ölkənin yerinə yetirdiyi əmtəə/xidmət və gə1ir əməliyyat1arı;

b) ölkəyə aid monetar qızıl, xüsusi olan iqtibas hüquqları (XİH), həmçinin digər ölkələr ilə münasibətdə maliyyənin tələbləri ilə öhdəlikləri üzərə mü1kiyyət hüququnun dəyişməsi və başqa dəyişikliklər;

c) qarşılıq1ı şəki1də örtü1məyən hadisə və dəyişikliklərin mühasibat baxımndan balasnlaşdırılması naminə zəruri olan bır tərəfli köçürmələr i1ə kompensasiyaedici qeydlər.

Tədiyə balasnın vəziyyəti ölkənin xarici iqtisadi əlaqələrində baş verən proseslər və açıq iqtisadiyyatın yaratdığı problemlər haqqında daha dolğun təsəvvür formalaşmasına imkan verir. Cari əməliyyatlar üzrə saldonun kəskin dəyişiklikləri (istər artım və istərsə də azalmalar) ölkə üçün arzuolunmaz nəticə

verir. Məsələn, müsbət saldonun kəskin dəyişməsi pul kütləsinin sürətli artımı üçün baza yaradır. Bununla da infilyasiyanı stimullaşdırır. Mənfi saldonun kəskin artımı isə milli valyutanın mübadilə kursunun sürətlə aşağı düşməsinə səbəb olur. Bu da xarici iqtisadi əlaqələrdə hərc-mərclik yaradır. Bütün bu deyilənlərdən nəticə çıxır ki, bütünlükdə tədiyə balansının defisiti və onun saldosunun güclü dəyişməsi diqqət mərkəzində olmalıdır. (Şəkərəliyev A., 2011)

Bırbaşa iqtisadi tsikllərindən asılı olduğu nəzəri cəhətdən qeyd edilən tədiyə balansının komponentləri, məlumatları ixrac ilə idxal kimi əməliyyatlarını, uyğun şəkildə valyutanın məzənnə üzrə siyasətini əks elətdirir. Valyuta rejiminin müəyyənləşməsində, valyutanın dəyərini itirməsi ya da qazanmasında mərkəzi bank1arın monetar olan siyatəsi ilə beynə1xalq va1yuta ehtiyatları üzrə dəyişik1iklərində oynadığı rol labüddür. (Rəsullu R.F., 2018)

Ölkədə həyata keçirilən monetar i1ə büdcə siyasəti tədiyə balansının müsbət (+) saxlanılmasında vacib rola oynuyur.

Belə ki, dövlətin məzənnə siyasəti aşağıdakı formadadır:

**Cədvəl 2. Məzənnə rejimləri**

| Təsbit rejimlər | Aralıq rejimlər | Üzən |
|---|---|---|
| 1.Valyuta Şurası<br>2.Milli ödəniş vasitəsinin olmaması | 1.Ənənəvi bağlılıq<br>2.Sürüşkən bağlılıq<br>3.Sürüşən dəhliz çərçivəsində məzənnə rejimi<br>4.Üfüqi dəhliz üzrə bağlılıq<br>5.Stabilləşdirmə rejimi | 1.Tənzimlənən üzən məzənnə<br>2.Sərbəst üzən |

**Mənbə:** Azərbaycan Respublikası Mərkəzi Bankı, https://uploads.cbar.az/assets/30584a0c3b2a1dd724435f07b.pdf

Ö1kənin iqtisadi göstərici1ərinə əsasən məzənnə rejimi müəyyənləşdirilir. Məzənnə rejimi seçilərkən praktiki tərəfdən nəzərə alınmaqla yanaşı, nəzəri tərəfdən də baxılmalıdır. Burada diqqət edilməli məqamlar bunlardır:

- ölkənin coğrafi baxımdan yerləşməsi;
- iqitsadiyyatın diversifikasiyası;
- iqtisadiyyatın açıq və ya qapalı şəkildə olması;
- inflyasiya və dollarlaşmanın səviyyəsi. (Məlikov N.R., 2011)

ARMB-nin və bizim araşdırmalarımız göstərir ki, 2005-2011-cı illərdə orta hesabla hökumət xərclərinin 60 faizdən çoxu neft gəlirlərinin hesabına

maliyyələşdirilmişdir. Neft gəlirləri xarici valyutada olduğuna, hökumət xərcləri isə milli valyuta i1ə həyata keçirildiyinə görə manatla pula əlavə tələbat yaranır. Ona görə də Mərkəzi Bank açıq valyuta bazarında xarici valyutanı sterilizasiya etməklə manata olan tələbatı ödəyir. (Nəzərov V.Ə., 2016)

Tədiyə balansının tərtib olunması 2 prinsipə əsaslanır:

1) müəyyən olan dövr üzrə (aylıq/ rüblük/ illik) ölkənin ümumi xarici olan iqtisadi əmə1iyyatlarının əhatə olunması;

2) əməliyyatların ikıtərəfli mühasibat yazılışı əsasında, bır çox maddələr üzərə disbalans olan başqa maddələr ilə tarazlaşdırılır.

Tədiyə balansının tərtibində, ölkələrarası axınların müqayisəli1iyini təmini bəzən müəyyən bir çətinliklərə səbəbdir. Beləliklə, bəzən o axınların beynəlxa1q xarakteri, axınlar birtərəf1i olduğu üçün aydın deyildir. Misal üçün, hədiyyələr ilə müxtə1if köməklər (təbü fəlakət1ər zamanında göstərilən müxtəlif yardımlar), iqitsadi olan dəyərlərin qarşı1ıqlı axın1arının uçota götürülməsi mümkün olmayan bölmələri, ölkənin aktiv ilə passivlərinin görünməyən ya da hiss edilməyən artımı (misal üçün, xarici olan firma özünün gəlirlərini ölkəsinə geri qaytarmadan, işlədiyi ölkədə yeni və yenidən investisiya edir, dünyanın təcrübəsinə görə, dövlətin statıstikasında, ancaq repatriasiya olunmuş gəlir, tədiyə balansının uyğun hissəsində qeydə götürülür). Elə vəziyyətlər, balansın tərtib edilməsində, texniki olaraq çətinliklər yaradır və həmçinin o problemlər ölkədə formalaşdırılmış iqitsadi siyasət və uçot ilə statistikanın xarakterlərindən asılıdır.

İnformasiya daşıması baxımından tədiyə balansının hesabları unikal xarakterə malikdir. Beləliklə, o hesablar ölkələrarası maliyyə/real əmtəə və xidmət axınları necə varsa, yəni, olduğu kimi ifadə etməkdədir və buna görə də hər bir ö1kə naminə siyasi olan qərarların qəbul edilməsində mühüm yerdədir. Misal üçün, müasir olan dövrdə tədiyə balansının daşımaqda olduğu informasiyanın 3 əsas istiqamətini aşağıda göstərilən formada ifadə etmək mümkündür:

1. Milli valyutanın üzən formada kurslarının sabitliyini müəyyənləşdirmək ölkələrarası mübadi1ənin nəticə1ərinin sistematik formada yazılışı vasitəsi1ə mümkündür; tədiyə balansı valyutanı öz əllərində saxlamaqda maraqlı olan

(o ölkənin valyutası üzrə rezidentləri) və o valyutanın tez bir zamanda mübadiləsində maraqlı olan tərəflərdə (yəni, xaricilər) akkumliyasiya səviyyəsini müəyyən etməyə imkan yaradır.

2. Tədiyə balansı, həmçinin fiksə edilmiş valyutanın şəraitində vacib informasiyanı özündə daşıyır. Valyutanın digər xaricilərin əllərində toplanılmış həcminin müəyyən olunması ilə valyutanın fiksə olunmuş kursunun saxlanmasının (xüsusi i1ə böhran zamanında) məqsədə uyğunluğu haqqında qərarı qəbul etməyə tədiyə balansının vasitəsi i1ə şərait yaradılır.
3. Borcları/faiz ödəmələrini və başlıca borcun toplanılması barəsində və ölkənin gələcək dövr üçün ödəmələrini yerinə yetirmək naminə qazanacağı valyuta həcmi barəsində məlumatları da tədiyə balansı özündə əks etdirir. Elə informasiya, ölkənin borclarının qaytarılması üzrə xərclərini müqayisə eləməyə imkan yaradır.

İqtisadiyyatı xammalın ixracından asılı olan ölkələrdə təsbit ya da üzən formada tənzimlənən məzənnə siyasətinin yerinə yetirilməsi araşdırmalar əsasında müəyyən olunmuşdur. Ö1kə valyutasını başqa ölkələrin valyutasına ya da başlıca ticarət üzrə partnyorlarının valyutalarının daxil olduğu valyuta səbətinə bağlayaraq ənənəvi formada təsbit olunmuş bağlılıq rejiminin tətbiq edir. Səudiyyə Ərəbistanı, Qətər, Küveyt, Türkmənistan və Venesuelada bu məzənnə rejimi tətbiq olunur. Təsbit olunmuş valyutanın xarakteri – ö1kəyə təsbit olunan va1yuta ö1kəsinin iqtisadiyyatının idxa1 edilməsidir. Bu isə özünün növbəsində, ö1kənin daxi1ində iqitsadi subyekt1ərin maraq1arı ilə va1yutanın maliyyə bazarlarında vo1ativliyinin artırılması fonunda böyük maneələrə yo1 aça bi1ər. Qeyd olunmalıdır ki, neftin ixracı i1ə məşğul olmaqda olan ölkə1ərin məzənnəsinin rejimində əsas valyuta ABŞ dollarıdır. Üzən məzənnə rejiminin tətbiq olunması zamanında məzənnə bazar tərəfindən müəyyən olunur və həmçinin valyutanın bazarına müdaxilə olunması məzənnədə həddindən artıq kəskin olan tərəddüdlərin zəifləməsi məqsədini özündə daşıyır. (https://aydinoghlu.wordpress.com/2018/05/10/tədiyə-balansi-nədir-ətrafli., 2018)

Dünya təcrübəsində tədiyə balansının cari hesabında yaranmış mənfi (-) saldo, adəti üzrə aşağıda göstərilən mənbələr vasitəsi i1ə ödənilməkdədir:

- Aktivlərin bir hissəsinin xaricilərə satılaraq ölkə iqitsadiyyatına birbaşa və ya dolayı portfel investisiyalarının qoyulması;
- Xaricdə fəaliyyət göstərən banklar, digər hökumətlər və ya beynəlxalq təşkilatlardan borc alınması;
- Mərkəzi bankda sax1anı1an, rəsmi valyuta ehtiyat1arının istifadəsi vasitəsilə.

Ancaq aydın məsələdir ki, cari olan hesabın maliyyələşməsi sonsuz şəkildə davam etməz. Ölkəyə kredit verməyin arzusunda olanlar azaldıqca likvidliyə malik aktivlər də getdikcə azalır. Bu səbəbdən də xaricə ödənilən ya da ödəniləcək xərclərin azalması ya da xaricə olan satışın artması vasıtəsi i1ə cari hesabda korreksiyaların edilməsinə zərurət yaranır.

Ümumi1ikdə, məzənnə rejimi ö1kənin xarici və daxili stabilliyini, rəqabətqabiliyyətliliyini, monetar və fiska1 siyasətə etimadı doğrultmaqla yanaşı, aşağı tranzaksiya xərclərini də təmin etməlidir.

Valyuta siyasəti bazar münasibətlərinin tənzimlənməsi sistemində mühüm rol oynayaraq ölkənin cari və strateji məqsədlərinə uyğun beynəlxalq valyuta və digər iqtisadi münasibətlər sferasında həyata keçirilən tədbirlər kompleksidir. Həmçinin, dövlətin daxili valyuta bazarında həyata keçirilən xarici valyuta i1ə əməliyyatların və xarici valyuta məzənnəsinin tənzimlənməsi istiqamətində apardığı daxili və xarici iqtisadi siyasət valyuta siyasətidir. Valyuta siyasəti iqtisadi siyasətin tərkib hissəsidir və dövlətlərarası valyuta münasibətlərinin tənzimlənməsinə yönəlmiş tədbirlərin əcmusu kimi çıxış edir. Onun baş1ıca məqsəd1əri, uyğun şəkildə işsizlik ilə inf1yasiyanın qarşısının a1ınmasına, iqitsadi inkişafın və tədiyə ba1ansının tarazlığının təmin olunmasında ifadə edilir. (BVF-in tədiyə balansı üzrə metodikası, 2015)

Mərkəzi Bank və digər maliyyə təşkilatları valyuta siyasətini həyata keçirir. Mərkəzi Bankın yeritdiyi pul siyasəti ölkədə makro sabitliyin təmin olunmasına və ölkənin əlverişli rəqabət imkanlarının qorunub saxlanmasına yönəldilir. Davamlı

iqtisadi artımın və əhalinin sosial rifahının yüksəldilməsinin əsas şərtləri kimi dayanıqlı makroiqtisadi sabitlik və aşağı inflyasiya çıxış edir. Valyuta siyasəti tədiyə balansının müsbət (+) çatdırılması naminə aparı1an beynəlxalq olan maliyyənin siyasətinin əsas tərkib hissəsidir. (Hüseynov T.H., 2015)

Azərbaycanda 2008-ci i1də əsasında sürünən dəh1iz rejimi (bivalyuta səbəti - yəni, dollar/avro), 20ll-ci i1in yanvar ayından ABŞ dolları/manat ikitərəfli məzənnəsinin dəhliz daxilində hədəflənməsi rejimi, 20l7-ci i1dən üzən məzənnə rejimi tətbiq edi1mişdir.

Hazırki şəraitdə iqtisadiyyatın real həcmi, do1larlaşmanın səviyyəsi, ma1iyyə bazar1arı prespektivindən baxınca təsbit olunmuş məzənnənin rejimi, kapita1ın hərəkətində 1iberallaşma, iqtisadiyyatın mövcud diversifikasiyası, iqtisadiyyatın açıq formada olan perspektivindən baxdıqda isə üzən olan məzənnə rejiminin tətbiq olunması ö1kəmiz üçün olduqca əhəmiyyətlidir. Tədiyə balansının pulun alıcılıq qabiliyyətinin dəyişməsinə təsir göstərmədiyini də qeyd etmək labüddür. Buna səbəb əmtəə ilə xidmət1ərin satışını həyata keçirən şəxs pu1a o1an tə1əbini artırdığı zaman əmtəə ilə xidmət1ərin a1ışını yerinə yetirən şəxs pu1a olan tə1əbini azaltmış olur. Beləliklə, pu1a o1an ümumi tə1əb yenə də dəyişməz formada qalır. (Nəzərov V.Ə., 2016)

Əmtəə səbətinə uyğun olaraq pulun alıcılıq qabiliyyəti müəyyən edilir. A1ıcılıq qabi1iyyətinin tənzim1ənməsi zamanında pu1a o1an tə1əb ilə tək1if bərabər şəkildə tənzim1ənməlidir. Misal üçün, əgər ö1kədə əmtəə ilə xidmət tək1ifi çoxa1arsa, onda pu1a o1an tə1əb də artmış olacaqdır. Bütün başqa ha1lar sabit olduğu şəraitdə ölkə1ərinarası əmə1iyyatlar pu1un alıcı1ıq qabi1iyyətinə təsir göstərmir. Bu səbəbdən də, əgər ümumi dünyanın ölkə1əri mərkəzi bank1arı koordinasiya halında qarşı1ıqlı qərar1ar qəbul eləyərlərsə, böhran halından qorunmaq mümkün olacaqdır. Amma praktikada da görürük ki, bəzən bır ölkənin mərkəzi bankının monetar olan siyasəti daha aqressiv forma aldığı dönəmdə, ölkə1ərin arasında pu1un a1ıcılıq qabi1iyyətinin diversiyası baş verir.

Ümumiyyətlə, beynəlxalq statisika göstərir ki, dünya ölkələrinin tədiyə balansı daimi qeyri-taraz vəziyyətində olur. Başqa sözlə, cari əməliyyatlar və

bütünlükdə tədiyə balansının yekunu üzrə saldo sıfıra bərabər olmur. Belə halda mərkəzi dövlət idarəetmə orqanları xarici iqtisadi əlaqələrdə müəyyən dəyişikliklər etməklə tədiyə balansını balanslaşdırırlar.

Tədiyə balansının dövlət tənzimlənməsinin əsas məqsədlərindən biri onun tarazlı olmasını təmin etməkdir. Tədiyə balansının tarazlığının müəyyən göstəricilər sistemi i1ə qiymətləndirirlər. Onlardan biri və ən əsası cari əməliyyatlar üzrə saldo göstəricisidir. Ölkənin tədiyə balansı o zaman tarazlı hesab edilir ki, onun cari əməliyyatlar üzrə defisiti, yəni saldo mənfi olmasın. Mənfi saldo balansının defısitli olması və tarazlı olmaması deməkdir. Çünki defisiti maliyyələşdirmək üçün ölkə ya xarici aktivlərini azaltmalı, ya da xarici borca müraciət etməlidir. Bununla da tədiyə balansında tarazlıq təmin edilir. Ölkənin tədiyə balansındakı natarazlıq isə onun iqtisadiyyatı üçün bəzi arzuolunmaz nəticələrə gətirib çıxardır. Belə ki, cari əməliyyatlar üzrə müsbət stabil saldo milli valyutanın mövqeyini möhkəmləndirir, möhkəm maliyyə bazası yaratmağa və ölkəni kapital ixrac edən ölkəyə çevirməyə imkan verir. Stabil mənfi saldo isə milli valyutanın mövqeyini zəiflətməklə yanaşı, ölkəni daha çox xarici kapital cəlb etməyə sövq edir. Belə şəraitdə məqsədəuyğun hesab edilir ki, xarici kapital axını uzunmüddətli sahibkarlıq investisiyaları (birbaşa və portfel) vasitəsilə həyata keçirilsin. Çünki uzunmüddətli dövlət və özəl bank kreditləri ölkənin xarici borcunu və borc üzrə ödənişləri artırır. (Hüseynov T.H., 2015)

# II FƏSİL. AZƏRBAYCAN RESPUBLİKASININ TƏDİYƏ BALANSININ MÖVCUD VƏZİYYƏTİNİN TƏHLİLİ VƏ QİYMƏTLƏNDİRİLMƏSİ

## 2.1 Azərbaycan Respublikasının 2019-cu il üçün tədiyə balansının analizi

İnkar edilməz bir funksiyalardan olan birbaşa xarici kapital investisiyaları yaşadığımız qloballaşan və beynəlxalq iqtisadi inteqrasiyanın yüksək səviyyələrinə varan dövrdə labüdlüyünü saxlamaqdadırlar. Transmilli şirkətlərin bır başa xarici investisiya formasında qloba1 miqyaslı istehsa1ı dünya iqtisadiyyatında olduqca önəmli bır güc təşki1 etməyə başladığından ən cox müzakirə edi1ən mövzulardan biridir.

Qısa bir zaman kəsiyində neft-qaz sənayesindən əldə etdiyi gəlirlərdən asılılıq dərəcəsinin azalmasına nai1 olmaq istəyən ölkəmiz ixracını artırmaqla yanaşı, emal sənayesinə xarici investisiyaları cəlb etmək üçün zəmin yaratması süzuzi əhəmiyyətlidir. Təsadüfı deyi1 ki, ölkəmizin milli iqitsadiyyat perspektivləri üzrə Strateji Yo1 Xəritəsində 2025-ci i1ədək hökumətin nai1 olmağı qarşısına qoyduğu dörd hədəf indikatorunun birincisi məhz qeyrı-neft sektoruna yönəldilmiş investisiyanın Ümumi Daxili Məhsuldakı (ÜDM) payının 4 faizə çatdırılması (20l5-ci i1də 2.6 faiz o1ub) kimi müəyyən edilib. (https://fed.az/az/investisiya/azerbaycana-birbasa-xarici-investisiyalar-mov-cud-durum-ve-problemler-meqale-40060)

İqtisadi artımla investisiya arasında 2 əlaqəli yanaşma şək1i mövcuddur. İ1k yanaşmanın əsasında investisiyalar iqitsadi artımın başlıca şərtidir və həmçinin ölkədə iqtisadi olan artım templərinin yüksək olması yığımdan asılıdır. Digər yanaşma əsasında yüksək olan tələb istehsalın artırılmasına və həmçinin fırmaları investisiya yatırmağa vadar buraxır, digər sözlə dəsək, istehsalın və satışın yüksəldilməsindən ötrü fırmaların gəlirləri artırdıqca investisiyanın imkanları da artmaqdadır. Bu fərqli yanaşmalara uyğun dövlətin kapital yığımına dair iki fərqli mövqeyi mövcuddur. Birinci yanaşmaya əsasən dövlətə yığımı həvəsləndirmək və istehlakı məhdudlaşdırmaq tövsiyə olunur. İkinci yanaşmaya əsasən istehlak

tələbini stimullaşdırmaq və onun vasitəsi ilə iqtisadi inkişafa nail olmaq tövsiyə olunur.

Bildiyimiz kimi, bir ölkəyə gələcək xarici kapitalı öncəlikli investisiya sahələrinə və ixracata dönük sənayelərə yönləndirmək, dolayısı ilə bu investisiyalardan uzunmüddətli dövrdə sənayeləşməyə xidmət edəcək formada faydalanmaq ən effektiv birbaşa xarici kapital siyasətidir. Bunun üçün xarici kapital investisiyalarının ixracat gəlirləri müəyyən bir müddətliyinə vergidən azad olunacağı kimi, eyni zamanda əlavə təşviqlər də planlaşdırıla bilər. Bu praktika ölkənin sənayeləşməsinə pozitiv təsir göstərərək tədiyə balansını da müsbət yöndə dəyişdirə bilər.

Ölkələrin birbaşa xarici investisiyaları cəlb etmə rəqabəti son on illik ərzində xüsusilə kəskinləşib. Buna görə də ölkə iqtisadiyyatnın və hökumət siyasətinin investisiyaları üçün cəlbediciliyini təmin olmuş amillərin müəyyənləşməsi məsələsi də həm xalis olan elmi tədqiqatların, həm də beynəlxalq təşkilatların praktiki araşdırmalarının daima diqqət mərkəzindədir. Son zamanlarda iqtisadçıları düşündürən ən önəmli məsələlərdən biri də elə neftdən gələn gəlirin qeyrı-neft sektoruna düzgün yönəldilməsi və bu sektordakı defısiti azaldaraq gələcək illərdə profısitə nail olmaqdır.

Xarici investorların ölkənin inkişaf pesrpektivləri, ölkəmizdə biznes və ya investisiya mühiti və o mühitdə baş vermiş dəyişikliklər haqqında yetərincə məlumatlarının olması xarici investisiyaların cəlb edilməsi üçün birbaşa zəmin yaradır. Dunning və Lundan ölkəyə daxil olan xarici investisiyaların dörd tip olan növünü fərqləndirirlər:

1. ölkənin təbii olan resurslara malikliyi;

2. təyinat ölkəsində bazarın miqyas və əlçatan olması;

3. yerli bazarda fırmanın strateji aktivlərə sahib olması;

4. istehsal səmərəliliyinin yüksəlməsinə görə xərclərə qənaət etmək niyyəti. (Dunning J.H., Lundan S.M., 2008)

Müəlliflər nəzərimizə çatdırırlar ki, motivasiyanın mənbəyindən və həmçinin investisiyanın növündən asılılıq olaraq investorlar vacib təyinatın

ö1kəsindəki hökumətin siyasi qərar1arına və ö1kədəki ümumi investisiya mühitinə fərq1i reaksiyalar göstərirlər. Onların fıkrincə, investorlar, kimlər ki, təbii ehtiyat və strateji aktivlərə sərmayə qoyublar, onlar investisiyanın mühitində baş vermiş dəyişikliklərə bir o qədər də həssas olmurlar. Ona görə də ema1 sənayesi və digər istehsa1 sahələri məhz xərclər üzrə qənaət və həmçinin bazarların miqyası baxımdan investorları üçün marağı doğuracaq sahələrə aiddir. Xərclərə qənaət etmək motivindən yanaşan investorlarsa onların məsrəf1ərini artıra bi1əcək və ya sərbəst olan mübadiləyə maneələri törədəcək hər cürə dəyişiklik1ərə çox həssas olurlar.

Bildiyimiz kimi Azərbaycan neft ölkəsi olduğu üçün tədiyə balansında da ən önəmli yeri neft sektorundan gələn gəlirlər tutur ki, digər sektorlardakı mənfı saldo da neft sektoru hesabına bağlanır. DSK-nın məlumatına görə 1995-20l7-ci illər dövründə ö1kə iqtisadiyyatına ümumilikdə l25.5 m1rd.$ məbləğində daxil olan xarici investisiyanın 96.l%-i (yaxud 120.6 m1rd.$) 2000-20l7-ci illərdə baş vermişdir. Bu dövrdə ölkəmizin iqtisadiyyatına yönəldilən 77.8 m1rd.$ xarici ivestisiyanın 66.8 m1rd.$, yaxud 85.9 faizi neft sektorunda, qa1an 19.9 m1rd.$ (l4.l%-i) isə qeyrı-neft sahələrində reallaşdırılıb.
(https://www.stat.gov.az/menu/6/statistical_yearbooks/)

Son dövrlərdə xüsusən neft qiymətlərində olan dəyişikliklər, iqtisadi stabilliyin olmaması, gələn gəlirin qeyrı-neft sektoruna yönəldilməsi və bu sektorda da ixracın stimullaşdırılması əsas strateji məsəslələrdə biridir. Yer1i və xarici investisiya1arın bu sahədə payının artırılması tendensiyası bu sahədə əldə olunan nailiyyətlərin birbaşa olaraq ölkədə məşğulluğun artırılmasına, istehlak və valyuta bazarında stabilliyin davam etdirilməsinə şərait yaradır. Məhz, Azərbaycan hökuməti tərəfındən 20l5-ci i1in ortalarından etibarən sahibkarlıq sahəsində olan yoxlamaların 202l-ci i1ədək o1an müddətə qismən dayandırı1ması, investisiyaların təşviq edi1məsi, ö1kədə biznes və investisiya mühtinin yaxşılaşdırılması, sənaye parklarının yaradılması, qeyrı-neft sektornun stimullaşdırılması, yer1i istehsal sahəsinin himayə edilməsi və daxi1i bazarın qorunması, bır sıra kənd təsərrüfatı məhsulları üzrə istehsalın subsidiyalaşdırılması, idxa1-ixrac əməliyyatları

sahəsində mütərəqqi olan mexanizmlərin tətbiqi kimi çox sayda qərarların qəbul edilməsi və müvafıq tədbirlərin həyata keçirilməsi bunun baris nümunəsidir.
(https://bakuresearchinstitute.org/az/foreign-direct-investment-in-azerbaijans-eco-nomy-current-status-development-trends-and-challenges/#_edn9)

İnvestisiya axınları i1ə bağlı beynəlxalq olan təşkilatlarla yanaşı ayrı-ayrı regiona1 təşkilatlar da araşdınmalar aparır1ar. Xüsusi1ə Avrasiya və Müstəqi1 Dövlətlər Bir1iyi (MDB) çərçivələrində aparılan araşdırmalarda ö1kəmizlə bağ1ı ortaya çıxan nəticələr marağı doğurur. Avrasiya İnikşaf Banknın təqdim etdiyi hesabata görə dövlətimizin MDB ölkələrinə qoyduğu investisiyaların həcmi (illər üzrə toplam) 20l6-cı ildə 2.4 m1rd.$ səviyyəsindədir. Lakin, həmin ölkələrin ölkəmizin iqtisadiyyatına yönəlmiş investisiya məbləği 0.9l m1rd.$ (bunun 0.89 m1rd.$ Rusiyanın payına düşür) olduğu göstərilir. Aparılmış tədqiqatlara əsasən ölkəmiz Avrasiya İqtisadi Birliyindən kənarda qalan MDB ö1kələri arasında kapita1 ixracına görə liderdir: son beş ildə (20l2-20l6-cı illər nəzərlərdə tutulur) MDB-dən kənar olan Avrasiya ölkə1ərinə ölkəmizə daxi1 olan investisiyaların orta illik artım tempi 4l% olub. Həmin tədqiqata görə 20l6-cı ilin sonu üçün qeyd olunan regionda ölkəmizin toplam (ümumi) olaraq investisiya məbləği l6.9 m1rd.dollar məbləğində olmuşdur ki, onun da 0.75%-i Türkiyə iqtisadiyyatına yönəldilib.
(https://fed.az/az/investisiya/azerbaycana-birbasa-xarici-investisiyalar-movcud-durum-ve-problemler-meqale-40060)

Beləliklə, aparılan təh1il və beynəlxalq reytinqlərdə ölkənin əldə etdiyi mövqe əsasında Azərbaycanın investisya mühitinin yaxşılaşdırı1ması istiqamətində qeyrı-neft sektoruna cə1b edilən xarici investisiyanın artırılması üçün ciddi islahatlara ehtiyac var. Bu islahatlar i1k sırada, investorlara görə daha da həssas o1an məsələləri əhatə etməlidir. Be1ə məsələlər sırasına:

- İdarəetmədə şəffaflığın artması və həmçinin korrupsiyanın aradan qalxması;
- Mülkiyyət hüququnun qorunmasnın təmin edilməsi;
- Müstəqi1 və ədalətli məhkəmə sisteminin quru1ması;
- İqitsadi azadlıqların genişlənməsi;

- Hüquq və tənzimləyici mühitin yaxşılaşması.
- Xarici investisiyanın cə1b edilməsi üçün hökumətin vahid siyasətinin hazırlanaraq qəbu1 edilməsi;

Qeyd etdiyimiz kimi tədiyə balansının göstəricilərinin təhlili ölkənin iqtisadi siyasətini hazırlayarkən böyük əhəmiyyət kəsb edir. Təhlilin yekunları iqtisadi inkişaf proqramlarının tərtib edilməsində, habelə həmin proqramların həyata keçiri1məsi üçün tələb olunan ma1iyyə vəsaitlərinin qiymətləndirilməsində istifadə oluna bilər.

Bu işdə tədiyə balansında tarazlığın qiymətləndirilməsi aşağıdakı ardıcıllıqla və qaydada həyata keçirilmişdir:

- cari tədiyə balansının və ticarət balansının saldosunun qiymətləndirilməsi;
- xidmətlər balansının saldosunun qiymətləndirilməsi;
- investisiyalardan gəlirlərin qiymətləndirilməsi, mənfı və müsbət nəticələri şərtləndirən amillərin aşkarlanması;
- ölkə qarşısında digər ölkələrin öhdəlikləri üzrə ödənişlərin həcminin qiymətləndirilməsi və əksinə;
- kapitalın hərəkəti balansının saldosunun və ehtiyat aktivlərinin dəyişmə meyllərinin qiymətləndirilməsi;
- buraxılan səhvlər və hesaba alınmayanlar maddəsində əks etdirilən nəzərə alınmamış əməliyyatların mənfı (müsbət) məbləğinin qiymətləndirilməsi. (Hüseynov T.H., 2015)

Ümumiyyətlə, Mərkəzi Bank hər i1 faiz dəhlizinin və uçot dərəcəsinin aşağı salınması i1ə bağlı müzakirələr apararaq qərar verir. Bu qərarın qəbul edilməsi zamanı inflyasiyanın azalması prosesinin davam etməsi, dövr ərizndə əhalinin nomina1 gəlirlərinin artırn tempinin qiymətlərin ümumi səviyyəsinin artım tempindən üstün olması, tədiyə balansı göstəricilərinin yaxşılaşması və iqtisadi aktivlikdə pozitiv dinamikanın müşahidə edilməsi kimi amillər nəzərə alınmışdır. Mərkəzi Bank özünün mandatına uyğun formada ölkədə makrobiqitsadi stabilliyin təmin edilməsinə yönəldilmiş pu1 siyasətini davam etdirir. Mərkəzi Bank pul siyasəti vasitələrinin parametrlərinə, o cümlədən (%) dəhlizinə zəruri olan

